# QARABAĞ KİTABXANALARI VƏ ERMƏNİ VANDALİZMİ

**Nadir İsmayılov**
*Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent*
*kafedra_biblioqraf@mail.ru*

**Əlizadə Nəcəfov**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru*

***Xülasə:*** *Xalqımızın qədim yaşayış məskənlərindən biri olan Qarabağ bölgəsi bəşər tarixinin bütün dövrlərində Cənubi Qafqazda sivilizasiyanın mərkəzi olmuşdur. Məqalədə erməni vandalizmi tərəfindən Azərbaycanda kitabxana informasiya quruculuğuna dəymiş zərər qeyd edilmişdir. Aparılan ümumi təhlillər zamanı müəyyən edilmişdir ki, kitabxanalar məhv edilərkən Azərbaycanda kitabxana informasiya quruculuğuna 20 milyon 815 min ABŞ dollarından artıq maddi ziyan vurulmuşdur.*
***Açar sözlər:*** *Qarabağ, kitabxana, sənəd, vandalizm.*

**Giriş.** Otuz ildən artıq bir dövrdə ermənistan silahlı qüvvələrinin Qarabağı işğal etməsi nəticəsində tamamilə məhv edilmiş sahələrdən biri də milli – mənəvi dəyərlərimizin tərkib hissəsini təşkil edən mədəni-maarif ocaqları, tarixi-dini abidələrimizlə yanaşı, fondunda min nüsxələrlə kitab xəzinəsi olan Mərkəzləşdirilmiş Kitabxana Sistemləri olmuşdur. İlkin hesablamalara görə erməni terrorçuları tərəfindən işğala məruz qalmış Qarabağda fondunda 4.6 milyon kitab olan 927 kitabxana məhv edilmişdir. Təqribi hesablamalar göstərir ki, bu kitabxanalar məhv edilərkən Azərbaycanda kitabxana informasiya quruculuğuna 20 milyon 815 min ABŞ dollarından artıq maddi ziyan vurulmuşdur. Xatırlatmaq yerinə düşər ki, biz bu yazıda yalnız MKS-lərə dəyən maddi ziyanlara diqqət yetirmişik, digər kitabxanalar məqalədə öz əksini tapır.

Bir qədər yaxın keçmişə nəzər salsaq görərik ki, Qarabağda elm, təhsil və maarifin inkişafı ilə yanaşı digər sahələr kimi çar rusiyası dövründə və sovetləşmənin ilk illərindən başlayaraq tarixən yaradılan kütləvi mədəni-maarif ocaqları içərisində kitabxana quruculuğunun da özünəməxsus yeri olmuşdur. Şəxsi kitabxanalarla yanaşı ilk kütləvi kitabxanalar mövcud siyasi hakimiyyət tərəfindən açılan məktəblərin nəzdində olan kitabxanalar və ailə kitabxanaları da əsas yer tutmuşdur.

Qafqazın mədəniyyət mərkəzi olmuş Şuşa şəhərində fəaliyyət göstərən poetik məclislərin ("Məclisi-üns" və "Məclisi-fəramuşan") hər birinin üzvlərinin köməkliyi ilə tanınmış ziyalılar X.B.Natavan və M.M.Nəvvab tərəfindən öz dövrünün zəngin şəxsi kitabxanaları yaradılmışdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Qarabağda yaranan kitabxanalar əsasən əhalinin savadsızlığının ləğvinə və maariflənməsinə xidmət edirdisə, XX əsrin birinci yarısında isə Qarabağın ayrı-ayrı yaşayış məskənlərində belə kitabxanaların şəbəkələri xeyli genişlənməyə başlamış və əksər insanlar kitabxana xidmətlərindən istifadə etmək imkanına malik olmuşlar.

Məlumdur ki, XX əsrin 70-ci illərində keçmiş sovetlər birliyində, o cümlədən Azərbaycanda da Mərkəzləşdirilmiş Kitabxana Sistemləri və onların filiallarının yaradılmasına başlanıldı. Qarabağın işğala məruz qalmış ərazilərində kitabxanaların mərkəzləşdirilməsi 1976-cı ildə Laçında, Kəlbəcərdə və Zəngilanda 1977-ci ildə Şuşada, 1978-ci ildə Füzulidə, 1979-cu ildə Ağdamda, 1980-cı ildə Qubadlıda və 1983-cü ildə Cəbrayılda başa çatmışdır. Yaranmış vəziyyətlə əlaqədar olaraq, yəni Qarabağın işğalından sonraki illərdə 2011-ci ildə Xocalıda, 2014-cü ildə isə Xocavənddə Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. Qarabağın erməni silahlı birləşmələri tərəfindən işğalına qədər Şuşa MKS- i bir mərkəzi kitabxana, 2 şəhər və 17 kənd filialı, uşaq və gənclər kitabxanalarını əhatə etmişdir.

Şuşada ilk şəhər kitabxanası 1897-ci ilin fevral ayında açılmışdır. Əsası M.M.Nəvvab tərəfindən qoyulan bu kitabxana-qiraətxana əsasən şəhər ziyalılarına xidmət etmişdir. Həmçinin M.M.Nəvvab özünün litoqrafiya daş mətbəəsində Qarabağ şairlərinin və yazıçılarının əsərlərini çap etmişdir. Kitabxananın yaradılmasında xan qızı X.Natəvanın oğlu Mehdiqulu xanın, dövrünün tanınmış maarifçisi, həkimi Kərim Bəy Mehmandarovun da xidmətləri olmuşdur. Sovet hakimiyyətinin ilk illərində M.M.Nəvvabın yaratdığı kitabxananı oğlu Miriş Ağa İbrahimzadə işlətmişdir. Bundan bir qədər sonralar Şuşa şəhərində əlavə 2 kitabxana; şəhər və uşaq kitabxanaları fəaliyyətə başlamışdır.

**Şuşa** rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1977-ci ilin may ayında yaradılmışdır. Şuşa Mərkəzləşdirilmiş Kitabxana Sistemi ilk yaradılanda 1 Mərkəzi Kitabxananı, 1 şəhər kitabxanasını, 17 kənd kitabxana filialını əhatə etmişdir. Sonralar əhali sayının artması, oxucu tələbatının çoxalması nəticəsində yeni şəhər, uşaq və gənclər filiallarının açılmasına da zərurət yaratmışdır. 1991-ci ilin məlumatına görə rayon MKS-də işçilərin sayı 103 nəfər, kitabxana fondunun ümumi həcmi 200 min nüsxə, oxucularının ümumi sayı isə 10 min nəfərdən çox olmuşdur. 1992-ci il may ayının 8-də erməni silahlı qüvvələrinin Şuşanı işğal etməsi nəticəsində Şuşa rayon MKS-in kitab fondu tamamilə məhv edilmişdir. İşğal zamanı rayon ərazisindəki 32 kitabxana və bu kitabxanalarda saxlanılan qədim əlyazma kitabları, o cümlədən 200 min nüsxədən artıq çap məhsulu yandırılmış və məhv edilmişdir. Kitabxanaların dağıdılması nəticəsində dövlətə **1 milyon 106 min** manat həcmində ziyan vurulmuşdur.

Şuşa rayon MKS 1993-cü ildən Bakı şəhəri, N.Nərimanov rayonunun Təbriz küçəsi, 2A saylı binanın zirzəmisində fəaliyyət göstərir. Hazırda MKS-nin şəbəkəsində oxuculara xidmət şöbəsi, metodika və biblioqrafiya şöbəsi, komplektləşdirmə və kitab işləmə, informasiya-resursları, uşaq şöbəsi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbələri fəaliyyət göstə-

rir. Cari ilin yekunlarına görə Şuşa MKS-in fondunda 40235 nüsxə ədəbiyyat var. Şuşa MKS-in işçilərinin sayı 52 nəfərdir. Onlardan 11 nəfəri ali, 35 nəfəri orta ixtisas təhsillidir. Oxucularının sayı 12 min nəfərdən artıqdır. İşğaldan əvvəl 21 filialı var idi, indi isə 12 filialla fəaliyyət göstərir. Hazırkı vəziyyətdə kitab verilişi 14065 nüsxə olmuşdur.

Ağdamda 1907-ci ildən ictimai kitabxana əhaliyə xidmət etmiş və nəhayət regionların rayonlaşdırılması dövründə, yəni 1930-cu ildə Ağdam rayonunda kütləvi kitabxanalar fəaliyyətə başlamışdır.

Ağdam Mərkəzləşdirilmiş Kitabxana Sistemi isə 1979-cu ildə yaradılmışdır. Onun tərkibində 1 Mərkəzi Kitabxana, 1 Gənclər Kitabxanası və 107 filial olmuşdur. Erməni işğalı ərəfəsində MKS-in fondunda 69996 nüsxə kitab, 72130 oxucusu və 9 şöbəsi olmuşdur. İşğaldan sonra Ağdam MKS 2010-cu ilə kimi Bakı Dövlət Universitetinin yataqxanalarının birinin zirzəmisində yerləşmiş, 2010-cu ildən isə Mərkəzi kitabxana öz fəaliyyətini rayonun Quzanlı qəsəbəsində davam etdirir. Hazırda MKS-nin 50 filialı fəaliyyət göstərir. Fondunda 132070 nüsxə kitab var. Cari ilin ilk aylarında oxucuların sayı 12815 nəfərə çatmış və kitab verilişi 68658 nüsxə olmuşdur. Kitabxananın 170 işçisi var. Onlardan 11 ali ixtisas, 80 orta ixtisas və 79 nəfər isə orta təhsillidir. Hazırda Ağdam MKS-nin 6 şöbəsi fəaliyyət göstərir. Kitabxana xidmət işinə tam yararlıdır və xüsusi binada yerləşir. Kitabxananın xidmət otaqları, geniş oxu zalı, 250 nəfərlik tədbirlər zalı var və internet avadanlıqları ilə kifayət qədər təchiz olunub.

Laçın rayonunda kütləvi kitabxanalar 1948-ci ildə açılmışdır. 1976-cı ildə Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. İşğaldan əvvəl Laçın MKS-in 14 şöbəsi, 1 uşaq kitabxanası, 2 şəhər kitabxanası, 1 mərkəzi kitabxanası və 115 kənd filiallarını özündə birləşdirirdi. Mərkəzləşdirilmiş Kitabxana Sistemi və onun kənd filiallarının kitab fondunda 843 min nüsxə kitab, 160 min qəzet, 120 min nüsxə digər çap məhsulları olmuşdur. 1992-ci ilin may ayında Laçın rayonu işğal olunduqdan sonra Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi və onun kənd filiallarının bütün əmlakı işğal zonasında qalmışdır. Bunun nəticəsində kitabxanaya 174 milyon manat ziyan dəymişdir.

1992-ci ilin may ayından etibarən Laçın rayon MKS və onun filialları öz fəaliyyətlərini çətinliklərə baxmayaraq respublikamızın 23 rayonunda bərpa etmişdilər. Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi Ağcabədi rayon Taxta Körpü qəsəbəsində kifayət qədər uyğunlaşdırılmış binada fəaliyyət göstərir. Hazırda Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin fondunda 241 min 780 nüsxə ədəbiyyat var. Onun 72 kənd filialı öz işini uğurla davam etdirir. Cari ilin ilk aylarında oxucuların sayı 21500 nəfərə çatmış və kitab verilişi 102500 nüsxə olmuşdur.

Qarabağın qədim mədəniyyət mərkəzlərindən biri də **Füzuli** rayonudur. Rayonda kütləvi kitabxana 1946-cı ildə təşkil olunmuşdur. Rayon və kənd kitabxanalarının bazası əsasında 1978-ci ildə Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. İşğaldan əvvəl xüsusi binada yerləşən MKS 1 rayon mərkəzi

və 89 filialı fəaliyyət göstəırmişdir. Bu kitabxanaların fondunda 97000 nüsxə ədəbiyyat olmuşdur. 2010-cu ildən MKS köçkünlər üçün Füzuli rayonunun ərazisində tikilmiş 1 saylı Zobcuq qəsəbəsində yerləşir. Rayonda 1 MKS və onun 46 filialı fəaliyyət göstərir. Bu kitabxanaların fondundan 56066 nüsxə kitab var. Cari ilin ilk aylarında kitabxanaların 5582 nəfər oxucusu olmuşdur. Kitabxananın kadr potensialı 177 nəfərdən ibarətdir. Onlardan 19 nəfər ali, 72 nəfər orta ixtisas digərləri isə orta təhsillidirlər. İşğal nəticəsində rayon kitabxanalarına təqribi hesablamalara görə 1 milyon 889 min manat həcmində maddi ziyan dəymişdir.

Zəngilan rayonunda kütləvi rayon kitabxanası 1933-cü ildən fəaliyyətə başlamışdır. Mərkəzləşmə isə 1976-cı ildə başa çatmışdır. Həmin vaxt 1 rayon mərkəzi, 3 şəhər, 1 qəsəbə və 65 kənd kütləvi kitabxanası birləşdirilərək Zəngilan Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. MKS-in fondunun ümumi həcmi 490 min nüsxə ədəbiyyat və digər çap məhsullarından ibarət olmuşdur. Oxucularının sayı 20 min nəfər təşkil etmişdir. 1993-cü ildə erməni işğalı nəticəsində rayon 1 mərkəzi, 3 şəhər, 1 qəsəbə və 65 kitabxana filialı məhv edilmiş və burada saxlanılan nadir kitablar talan edilmişdir. İşğaldan əvvəl MKS və filiallarda 158 nəfər işçi heyəti olmuşdur. Kitabxana 2010-cu ildən Bakı şəhərinin Nərimanov rayonunda H.Məmmədov küçəsi 11 ünvanında fəaliyyət göstərir. Zəngilan rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin nəzdində 6 şöbə fəaliyyət göstərir. Kitabxana fəaliyyət göstərdiyi müddətdə respublikanın həyata keçirtdiyi tədbirlərdə yaxından iştirak etmiş, bayram günlərini, anım günlərinin keçirilməsində milli-mənəvi dəyərlərlə bağlı tədbirlərdə rayonun iştirakçısı olmaqla yanaşı əhatə etdiyi ərazidə oxuculara müntəzəm xidmət göstərmişdir. Hazırda fondunda olan 14650 nüsxə ədəbiyyatla 2550 nəfər oxucuya xidmət edir. Kitabxananın 7 ali, 18 nəfər orta ixtisas və 5 nəfər orta təhsilli olmaqla 25 işçisi var. İşğal nəticəsində rayon kitabxanalarına 1 milyon 660 min manat maddi ziyan dəymişdir.

Cəbrayıl rayonun mərkəzində və digər yaşayış mərkəzlərində kütləvi kitabxanalar XX əsrin 30-cu illərindən fəaliyyət göstərməyə başlamışdır. Rayonda Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1983-cü ildə yaradılmışdır. Ermənistanın işğalına qədər 1 rayon mərkəzi kitabxanası, 1 rayon uşaq kitabxanası, 1 şəhər kitabxanası və 75 kənd kitabxana filialı fəaliyyət göstərmişdir. Bu kitabxanaların fondunda olan 352400 nüsxə kitab və digər çap məhsulları ermənilər tərəfindən işğal zamanı yandırılaraq məhv edilmişdir. İşğaldan əvvəl rayon kitabxanalarında 150-dən çox işçi fəaliyyət göstərmişdir. İşğaldan sonra MKS və onun 30 filialının işi bərpa edilmişdir. 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 01 iyul 2004-cü il tarixli 298 saylı sərəncamına əsasən Biləsuvar rayon ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün istifadəyə verilmiş qəsəbələrdə tikilmiş müasir tipli, avadanlıq və mebel dəstləri ilə təmin edilmiş yeni kitabxana binalarına köçürülmüşdür. Hazırda Cəbrayıl rayon MKS Biləsuvardakı 6 saylı qəsəbədə fəaliyyət göstərir. Onun 22 filialı var. Fondu 78500 nüsxə, daimi oxucuların sayı isə 5397 nəfər, kitab verilişi isə 23500 nüs-

xə olmuşdur. MKS-in 42 işçisi var, onlardan 5 nəfər ali, 15 nəfər orta ixtisas, digərləri isə orta təhsillidirlər. Mərkəzləşdirilmiş Kitabxana Sistemi və onun filiallarında həyata keçirilən müxtəlif tədbirlərin şəbəkəsi genişləndirilir, oxuculara xidmətin yaxşılaşdırılması, fondun zənginləşdirilməsi və kitabxana işçilərinin ixtisasının artırılması sahəsində tədbirlər davam etdirilir.

Kəlbəcər rayonu tarixi Qarabağ ərazisində ən qədim və ərazisinə görə ən böyük yaşayış məskənlərindən biridir. XIX əsrin sonu və XX əsrin əvvəllərində Kəlbəcər rayonunda da ictimai və şəxsi kitabxanalar yaradılmışdır. 1947-ci ildə Kəlbəcərdə rayon kitabxanası, kənd kitabxanaları rayon və kənd əhalisinə xidmət göstərmişdir. Rayonda mövcud olan bu kitabxanalar əsasında Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1976-cı ildə təşkil olunaraq əhaliyə xidmətə başlamışdır. Kəlbəcərdə işğaldan əvvəl MKS və onun 119 filialı mövcud idi. Bu kitabxanaların fondunda 480 min nüsxə ədəbiyyat var idi. Həmçinin 261 işçi əhaliyə kitabxana xidməti göstərmişdir.

Kəlbəcərin işğalından sonra, yəni 1993-cü ildən indiyənə kimi rayon MKS və onun 80 filialı əsasən Gəncə şəhərində və respublikanın digər 7 rayonunda fəaliyyət göstərir. MKS-in fondunda 105115 nüsxə çap məhsulları var. Bu kitabxanalar 10300 nəfər nəfər xidmət edir. Kitabxanaların işçilərinin sayı 231 nəfərdir, yəni işğaldan əvvəlki ilə müqayisədə 30 nəfər azdır. Onlardan 27 nəfər ali, 40 nəfər orta ixtisas, qalanları isə orta təhsilli işçilərdir.

Qarabağdakı erməni vandalizmi nəticəsində məhv edilmiş kitabxanalardan biri də Qubadlı rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemidir. Qubadlı rayonunda kütləvi kitabxana hələ 1936-cı ildən fəaliyyət göstərmişdir. Qubadlı rayon MKS-i mərkəzi rayon və kənd kitabxanalarının əsasında 1980-cı ildə təşkil olunmuşdur. İşğala kimi olan dövrdə rayonda 812 min kitab fondu olan 1 MKS, 1 uşaq kitabxanası və 84 filialı mövcud idi. Filiallarla birlikdə MKS-in 21000 oxucusu var idi. Qarabağın işğalından sonra kitabxana Sumqayıt şəhərində "28 may" Mədəniyyət evində yerləşir. Fondu 25000 nüsxə, oxucularının sayı isə 4200 nəfərdir. İşğaldan əvvəl işçilərinin sayı 128 nəfər olsa da, hazırda onların sayı 23 nəfərdir. Onlardan 4 nəfər ali, 14 nəfər orta ixtisas və 5 nəfər orta təhsillidir. Son illərdə müxtəlif mövzularda kitabxanada 185 kütləvi tədbir həyata keçirilmişdir. Son illərdə Kitabxanada elektron kataloqdan da istifadə edilir. Hazırda elektron kataloqa 19780 nüsxə kitab yerləşdirilmişdir. Kitabxanada 5 şöbə fəaliyyət göstərir və bütün şöbələri kompüter avadanlıqları ilə təchiz edilmişdir.

Qarabağın qədim yaşayış məskəni olan Xocalı şəhərində ilk dəfə 1969-cu ildə müstəqil kitabxana yaradılmışdır. İşğala qədər Xocalı rayonunun azərbaycanlılar yaşayan şəhər və kəndlərində ümumilikdə 29 müstəqil kitabxana fəaliyyət göstərmişdir. 2011-ci ildə fəaliyyəti zəif olan 15 kitabxana birləşdirilərək Mərkəzi kitabxana və 14 kitabxana filialı yaradılıb. Mərkəzi kitabxana 2011-ci ildən Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində fəaliyyət göstərir. Halhazırda Xocalı rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində 1 mərkəzi kitabxana və 11 kitabxana filialı fəaliyyət göstərir. Xocalı MKS-in 47266 nüsxə kitab

fondu var. Daimi oxucuların sayı 2067 nəfər, işçilərin sayı isə 44 nəfərdir. Onlardan 27 nəfər Mərkəzi Kitabxana Sistemində, 17 nəfər isə kitabxananın filiallarında fəaliyyət göstərir. İşçilərindən 7 nəfəri ali, 11 nəfəri orta ixtisas, digərləri isə orta təhsillidir.

Xocavənd rayonu qədim zamanlardan azərbaycanlıların Qarabağda əsas yaşayış məskənlərindən biridir. XX əsrin əvvəllərindən başlayaraq burada kütləvi və şəxsi kitabxana-qiraətxanalar fəaliyyət göstərmişdir. Xocavənd rayonu Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII saylı qanununa əsasən DQMV ləğv edilərək Martuni və Hadrut rayonlarının azərbaycanlılar yaşayan kəndlərinin bazası əsasında yaradılmışdır. Bu rayon mərkəzlərinin tərkibində olan 12 azərbaycanlılar yaşayan kəndlərində kütləvi kitabxanalar mövcud idi. Xocavənd rayonunda MKS 2014-cü ildə yaradılmışdır. Hazırda MKS-in 4 filialı fəaliyyət göstərir. Kitab fondunda 47107 nüsxə ədəbiyyat var. Oxucuların sayı 16 min nəfərə yaxındır. 26 nəfər işçisi var, onlardan 4-ü ali, 8-i orta ixtisas, 14 nəfər isə orta təhsilə malikdir. Beləliklə erməni vandalizminə məruz qalmış Qarabağın Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin vəziyyəti yuxarıda qeyd olunanlardan ibarətdir.

Əraziləri erməni silahlı birləşmələri tərəfindən işğal edilmiş rayonların MKS-ləri ilə bərabər, həm də bölgədə mövcud olan Xankəndi Pedaqoji İnstitutunun kitabxanası, yüzlərlə ümumtəhsil məktəblərinin kitabxanaları, orta ixtisas təhsili verən texnikum və peşə məktəbi kitabxanaları da tamamilə məhv edilmişdir. Bundan başqa Qarabağda mövcud olan 67 məscidin hər birinin azsaylı, lakin çox qiymətli kitab fondu, qədim əlyazmaları və dini kitabları məscidlə bir yerdə məhv edilmişdir.

Bunu da qeyd edək ki, ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində təkcə işğalda olan ərazilərdəki MKS-lərdə deyil, həmçinin respublikanın bir neçə digər cəphəyanı rayonlarının kitabxanalarına da maddi ziyan vurulmuşdur. Belə ki, işğal zamanı Tərtər rayonunun 26 kitabxanası, Ağcabədi rayonunun 1 kitabxanası, Qazax rayonunun 10 kitabxanası ermənilər tərəfindən tamamilə məhv edilmişdir. Bu kitabxanalara isə ümumilikdə 150 minə yaxın maddi ziyan vurulmuşdur.

Yekun olaraq bildiririk ki, Qarabağ kitabxanaları məcburi köçkünlük illərində, çətin şəraitdə olsa da, əhaliyə kitabla xidmət işinin təşkilində bacardıqları qədər çalışmışdılar. Mərkəzləşmiş Kitabxana Sistemlərinin və onun filiallarının fondlarını yenidən təşkil etmişdilər. İşğal nəticəsində kitabxanaların təkcə fondu məhv edilməmişdir, həmçinin bu kitabxanaların **əməkdaşları arasında şəhid olanlar, iş yerini itirənlər də çox olmuşdur.** Hazırda işğal nəticəsində məcburi köçkün düşmüş 10 Mərkəzi Kitabxana Sistemi, 370 filial və onların fondundakı 787789 nüsxə çap məhsulu ilə 133361 nəfər oxucuya xidmət etmişlər. Bu Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin birlikdə 995 nəfər işçisi vardır. Onlardan 116 nəfər ali ixtisas, 339 nəfər orta ixtisas, qalanları isə orta təhsilli və vakant yerlərdən ibarətdir. Orta hesabla bu MKS-lərdə kitab verilişi 338519 nüsxə təşkil edir. **(Cədvəl mətnə əlavə olunur).**

**Nəticə.** Zəfər ilə başa çatmış 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağ bölgəsi erməni işğalından azad edilmişdir. Artıq iki ildir ki, Qarabağda bərpa və abadlıq işlərinə başlanılmışdır. Rayonlarda fəaliyyət göstərən MKS-lərin gələcək bərpası və inkişafı Azərbaycan dövlətinin, xüsusilə də ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət mərkəzində olan prioritet sahələrdən biridir. Məlumdur ki, növbəti ildən başlayaraq "Qayıdış" planına əsasən bölgənin rayonlarında yaşayış bərpa olunacaq. Başqa sahələrlə yanaşı MKS-lər də öz işini bərpa edərək rayon əhalisinə xidmət işlərini uğurla davam etdirəcəklər.

Qarabağın kitabxanalarının gələcəyi haqqında çağırışlar:

– İşğaldan azad olunmuş ərazilərdə müasir standarlara cavab verən kitabxanaların yaradılması;

– Kadr korpusunun zənginləşdirilməsi;

– Heydər Əliyev mərkəzində diyarşünaslıq və ölkəşünaslıq şöbələrinin yaradılması;

– Bu kitabxanaların fondunun ən müasir elmi nailiyyətləri özündə əks etdirən elektron sənədlər və ənənəvi sənədlərlə zənginləşdirilməsi və s. Qarabağ ərazisində yeni tipli kitabxana infrastrukturunun yaradılmasını təmin edə bilər.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**


1. Xələfov A.A. – Azərbaycanda kitabxana işinin tarixi (1933-1958).
2. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilmə məsələləri, Bakı, ADU 1986, 78s.
3. Nəcəfov Ə.Ş. – Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar vilayətində kitabxana işinin tarixindən (1923-1990), Bakı, 2000, 332 s.
4. Nəcəfov Ə.Ş. – Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar vilayətində kitabxana işinin tarixi (1923-1988), Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2000, 195 s.
5. Süleymanov E., Süleymanov V., – Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri, Bakı, 2013, 176 s.
6. Şuşa, Laçın, Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı və Xocavənd rayon Mərkəzləşdirilimiş Kitabxana Sistemlərinin 2022-ci ilin birinci rübünə aid cari hesabatları.

**Alizade Najafov, Nadir İsmayilov**

**Karabakh libraries and Armenian vandalism**

**Summary:** *The Karabakh region, one of the ancient settlements of our people, has been the center of civilization in the South Caucasus throughout history. The article noted the damage caused by Armenian vandalism to library information construction in Azerbaijan. During the general analysis, it was determined that more than 20 million 815 thousand US dollars of material damage was caused to the library information structure in Azerbaijan during the destruction of libraries.*

***Keywords:*** *Karabakh, library, document, vandalism.*

**Ализаде Наджафов, Надир Исмаилов**

**Библиотеки Карабаха и Армянский вандализм**

**Резюме:** *Карабахский регион, одно из древних поселений нашего народа, на протяжении всей истории был центром цивилизации Южного Кавказа. В статье отмечен ущерб, нанесенный армянским вандализмом библиотечно-информационному строительству в Азербайджане. В ходе общего анализа было установлено, что в результате уничтожения библиотек библиотечной информационной структуре в Азербайджане был нанесен материальный ущерб на сумму более 20 миллионов 815 тысяч долларов США.*

***Ключевые слова:*** *Карабах, библиотека, документ, вандализм.*

***Rəyçi:*** *p.ü.f.d.,dos.* ***S.P.İsmayılova***